# Aslan KƏNAN - 70



Hörmətli Aslan müəllim!

Sizi - tanınmış tədqiqatçı və publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1952-ci ildə Bakı şəhərində anadan olmusunuz. 1969-cu ildə 240 saylı orta məktəbi bitirib indiki Azərbaycan Dövlət Pedaqoji Universitetin filologiya fakültəsinə daxil olmusunuz. Ali təhsilinizi başa vurduqdan sonra Neftçala və Şamaxı rayonlarında dil-ədəbiyyat müəllimi kimi çalışmış, sonra Maarif Nazirliyinin elmi-metodiki mərkəzində metodist kimi fəaliyyət göstərmisiniz.

Sizin yaradıcılığınızın ən uğurlu dövrü 90-cı illərdə Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivindəki fəaliyyətinizlə bağlıdır. Həmin arxivdə indiki nəslə məlum olmayan sənədləri və faktları araşdırıb üzə çıxarmısınız. Tədqiqatlarınız nəticəsində Üzeyir və Ceyhun Hacıbəyli qardaşlarının bu günki nəslə məlum olmayan yazıları üzə çıxarılmışdır.

Repressiya mövzusu sizin əbədi mövzunuzdur. Ötən əsrdə repressiyaya məruz qalmış onlarla günahsız insanın taleyini araşdırmış, onlar barəsində oxuculara məlumat vermisiniz. Siz "XX əsrdə repressiyaya məruz qalanlar", "1930-cu illərin günahsız qurbanları", "Arxivlərdən gələn səslər", "XX əsrin görkəmli musiqi tədqiqatçısı "Firidun Şuşinski", "Bəhram Mansurov" və s. sanballı kitabların müəllifisiniz.

Sizin sayənizdə yazıçı Cəmşid Əmirovun və tovuzlu Qəmxar təxəllüslü şairin çap olunmamış əsərləri işıq üzü görüb.

"Onlar Türklərdir" əsərinin müəllifinin kimliyi də sizin əməyiniz sayəsində müəyyənləşib. Məlum olub ki, "Rana" təxəllüslü yazıçı mühacir həyatı yaşamış həmyerlimiz Mirzə Abay Dağlıdır.

Hörmətli Aslan Kənan!

Siz hal-hazırda Azərbaycan Dövlət Tarix Arxivində direktor vəzifəsində çalışır, tədqiqatlarınızı davam etdirirsiniz.

Sizi 70 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 22 yanvar.- 2022- ci il.- S. 28.**